# "OV", "YEV", "SKİ" və "ZADƏ" HAQQINDA PEYĞƏMBƏR SALAVATULLAHA DİLƏK

**ŞAHMAR ƏKBƏRZADƏ**

*Əlyovm, uruslaşmaq ile zişərəfiz biz.*
*Dinimizin başına əngəl-kələfiz biz.*
*"Fəxriyyə"*
*M. Ə. SABİR*

Başımdan duman qalxır,
İçimdən alov.
Sizinləyəm Nəbiyev, Məhəmmədov,
Yasinov, Orucov, Namazov,
Kəndimizin mollası Əli Əliyev
Başımı itirmişəm tamam.
"Nəbi" peyğəmbər deməkdir,
Əli - birinci imam.
Məhəmməd - peyğəmbərimiz!
Bəs bu müqəddəs adlara
"Ov"ları, "yev"ləri
Hansı şərəflə calamışıq biz?
Məhəmməd Məhəmməddi,
"Məhəmmədov" nədi?
Məhəmmədə "ov" calamaq
Rəzalətdir, rəzalət!
Keç günahımızdan
Allahümmə səlli, əla
Məhəmmədin və ali Məhəmməd!

* * *

Privet, Qadjiyev,
vısokopoçtennıy N. Noviç.[1]
Günahımdan keç!
Sevdiyin dildə başlayıram
Salam - səfaya.
Vo - pervıx,[2]
Kaka ona - jizn molodaya?[3]
Vo - vtorıx,[4]
Həcc - müqəddəs ziyarət
Hacı müqəddəs ad!
Heyhat!
Nə dilimizə hörmət qalıb,
Nə dinimizə hörmət!
Hacıya "yev" calamaq -
Rəzalətdi, rəzalət!
Keç günahımızdan,
Allahümmə səlli, əla Məhəmmədin
Və ali Məhəmməd!

* * *

Salam, Mirzə Fətəli, ulu insan!
Salam, Fətəli xan!
Biriniz Axundovsunuz,
o biriniz Xoyski!
Soyadlarınıza baxanda
Qaralır adamın qanı.
Əzizim Mirzə Fətəli,
"Ov"la niyə ləkələmisən
Əliqur'anlı Axund babanı?!
Cənab Xoyski,

---

1 Çoxhörmətli
2 Öncə
3 Nasılsan, cavan oğlan?
4 İkincisi.

Cavab ver isti-isti.
Xoy Xoydur,
Bəs Xoyski nədir, Xoyski?
Bağışla, baş nazir,
Xoyu da biabır etmisən,
Soyadlarımızı da,
Üstəlik əcdadlarımızı da!
Babalarımızın gorunu
Çatladıb "ski"lər.
Səndən nümunə götürüb,
Göbələk kimi artıb
Şuşinskilər,
Şəkinskilər,
Ağdamski,
Səfikürdski,
Düdənginski
Naxçıvanski, Şıxlinski
və Şahtaxtinskilər!
Polyak şəkilçisinə
göz dikmək -
Rəzalətdir rəzalətdir.
Keç günahımızdan,
Allahümmə səlli əla
Məhəmmədin və ali Məhəmməd!

* * *

Sizinləyəm dostum,
Aytmatov,
Oljas Süleymenov,
Sizi səsləyirəm, sizi!
"Ov"lar ovlayıb bizi.
Özümüz bir yana
Ələ salıb

Müqəddəs dinimizi!
Ey Türk oğulları,
Yanıram alov-alov.
Cavablandırın sualımı
Cənab Axundov,
Qospodin Xoyski,
Yoldaş Nəriman
Niyə Mikoyev
olmadı Mikoyan?
Dostlarımızdan bircəciyi
Gördünüzmü soyadımıza
Tamah sala,
"İvanoğlu" ola?
Ulyanov familyasını
Ulyanlı edərdimi?
Dzerjinski öz "ski"sini
"li"yə çevirərdiimi?
Təzələdiniz dərdimi?
Özgələrden soyad tutmaq -
Rəzalətdir, rəzalət!
Keç günahımızdan,
Allahümmə səlli əla
Məhəmmədiin və ali Məhəmməd!

* * *

İşdi-şayət,
Özünü təmiz çıxarsa,
İqtidar Məmməd, vali Əhməd
Onlara inanmayın.
Dedikləri qələtdir, qələt!
Hökmündəydi qanun-qayda.
Ancaq nə fayda!
Soyadımı dəyişməyə

Qoymurdu iki namərd
Əhmədlə, Məmməd!
Fəqət döyüşdüm,
Soyadımı Volkovun
köməyilə dəyişdim.
Uydum ağsaqqallarımın şəcərəsinə.
Tapındım dahi Sabirin
Tahirzadəsinə,
Ustad Bəxtiyarın
Vahabzadəsinə.
Ulu babamın
Adını zədələdim.
Soyadımı "Əkbərzadə" elədim.
Düz deyir Sabir,
Hamımız bir bezin qırağıyıq.
Adına,
Soyadına
Yeddiarxa dönənine,
mübarək dininə
işıq salmayan
Millət çırağıyıq.
Bu da rəzalətdir, rəzalət!
Daha keçmə günahımızdan,
Allahümmə səlli əla Məhəmmədin
və ali Məhəmməd!